QƏRBİ AZƏRBAYCAN

XX əsrin bəlası - Deportasiya






# "Qərbi Azərbaycana qayıdış" mövzusunda tədbir

***1 fevral 2025-ci ildə Qərbi Azərbaycan İcmasında İcmanın Gənclər Şurasının təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda toplantı keçirilib.***






Tədbir Vətən uğrunda canından keçən şəhidlərimizin və ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Dövlət Himninin səsləndirilməsindən sonra Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbiri açıq elan edərək bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclərin rolu və dəstəyi mühüm əhəmiyyət daşıyır. Deportasiya ilə bağlı reallıqların, eləcə də irsimizin nəsildən-nəslə ötürülməsi məhz gənclərin bu həqiqətlər barədə olan biliklərinə əsaslanır.




Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının və Milli Məclisin Səhiyyə Komitəsinin sədri, tibb elmləri doktoru, akademik Əhliman Əmiraslanov çıxışında vurğulayıb ki, Azərbaycanda gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyevin dövründə qoyulub. Bu gün cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Bu gün azərbaycanlı gənclər xaricdə yeni-yeni uğurlara imza atır, ölkəmizin adını daim yüksəkdə tuturlar.

İcmanın gənclərlə iş üzrə məsul şəxsi Anar İrzaquliyev Gənclərlə İş üzrə Departamentin yenilənmiş strukturundan bəhs edib. Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının və Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Şahin İsmayılov gənclərin günümüzün aparıcı-lokomotiv qüvvəsi olaraq Qərbi Azərbaycanla bağlı daha ətraflı məlumata malik olmalarının vacibliyini vurğulayıb. Bildirib ki, gənclərin istər təmsil olunduqları platformalar, istər sosial media, istərsə də digər ölkələrdəki fəaliyyətləri zamanı Qərbi azərbaycanlıların ötən əsrdə üzləşdikləri deportasiya və soyqırımlarla bağlı həqiqətləri çatdırmaları önəmli rola malikdir.

"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı təmsil etdiyi təşkilatın Qərbi Azərbaycan İcması ilə birlikdə bu istiqamətdə gördüyü fəaliyyətə toxunub, gənclərin, təşkil edilən bütün tədbirlərdə aktivlik göstərdiyini deyib.

Qərbi Azərbaycan İcmasının üzvləri Həsən Əhmədov və Fidan İbrahimova çıxışlarında öz timsallarında gənclərin üzərinə Qərbi Azərbaycan məsələsi ilə bağlı düşən məsuliyyəti vurğulayıb, gənc nəsil olaraq bu müqəddəs amalla əlaqədar bütün güclərini səfərbər edəcəklərini bildiriblər.

Sonda əslən Qərbi Azərbaycandan olan və bir sıra uğurlara imza atan 15 gəncin, eləcə də İcma ilə səmərəli əməkdaşlığa görə 10 gənclər təşkilatının mükafatlandırılması həyata keçirilib. İcmanın müxtəlif tədbirlərində iştirak etmiş 30 gəncə üzvlük vəsiqələri təqdim edilib.

**Tacir SADIQOV,**
**"Respublika".**